

Rahid Ulusel

# XXI əsrin aforizmləri

*Beşinci hissə*

Dünyagörüşlü və məsuliyyətli vətəndaşlar doğru siyasətin xeyirxah əlləridir.

* * *

Siyasətin strategiyası ilə diplomatiyanın taktikası bir-birini tamamlayanda, onlar birlikdə cəsarətlə addımlaya bilir.

* * *

Siyasətçi - əks-sədanın yaranmasından bitincəyədək bütün dəyişmələrini, yeni informasiya yüklənmələrini və boşalmalarını bilən adamdır.

* * *

Diplomatiya: hətta suyu da içəndə çeynəmək lazımdır.

* * *

Siyasətçilər ortaq məxrəci diplomatik məcrada tapırlar.

* * *

Diplomatın təbəssümü - qəlbin karikaturası.

* * *

Siyasət - həyatın bir parçasıdır: əgər insan ona qarışmırsa, deməli, həyata qarışmır.

* * *

Hiyləgərlik vasitəsinə çevriləndə sözlər qarmaq şəklini alır.

* * *

Siyasətçilərin bəzən bir-birinin qarşısına atdığı əlcəkləri öpüb gözünün üstünə qoyması onların daha amansız duelini istisna etmir.

* * *

İkiqütblü, yoxsa, ikibuynuzlu dünya?!

* * *

Hazırkı dünyanı idarə etməyin ən yararlı canlı qlobal aləti - "beynəlxalq kütlə".

* * *

Virtual dünyada qanadlarsız da uçmaq olar.

* * *

Axır ki... insanlar da quşlar və balıqlardan, ilanlar və böcəklərdən, sular və buludlardan... sonra sərhədsiz yaşamağı öyrənməlidir!

* * *

Təhlükəli planet: idrakın və atomun koordinatlarında meteor çarpıntılarından keçir.

* * *

Bəşəriyyət özünə qarşı iki böyük təhlükənin heç birindən qorxmasın: qlobal istiləşmə dünyanı su ilə dolduracaqsa da, nüvə silahları ilə onu buxarlandırıb qurutmaq olacaq.

* * *

Şərq öz inkişafında yarımçıq qaldı. İndi Qərb də öz inkişafında yarımçıq qalır. İki yarımçıqdan bir bütöv yaratmaq olarmı?!

* * *

Şərqin yerində Qərb əkmək istəyirlər. Amma, bilirsiniz, nə bitəcək: kol-kos.

* * *

Klassik mahiyyətinə çatır - Pulu Qızıla çevirəndə.

* * *

İctimai fikir - çoxluğun monoloqu.

* * *

İnsanlar bəzən özlərindən böyük saydıqlarının dalınca birnəfəsə qaçanda əvvəlcə onların tozunda boğulur, sonra da təngnəfəs olub ayaqları altına yıxılırlar.

* * *

İctimai rəyi onun fərdlərinə bölmək olsaydı, ortada heç nə qalmazdı.

* * *

Ədalətsizliyi ədalətsiz yolla aradan qaldırmağa çalışmaq - onun daha dolaşıq kələfini ortaya atmaq deməkdir.

* * *

Güc və Zor yağıdır: çünki biri - ədalətin, o biri - ədalətsizliyin silahıdır.

* * *

Risk etməkdən qorxmaq çox zaman ondan da təhlükəli uduzmalarla nəticələnir.

* * *

Dünyanın tarixi-siyasi xəritəsi - küpəgirən qarının üzündəki qırışlar kimi dəyişib səyrişir.

* * *

Zənciri qıran - ondan qopan bir halqadır.

* * *

Dünyada ən çox istənilən də odur, ən çox tapdanılan da odur - Ədalət!

* * *

Bütün təhlükələrə sinə gərərkən - təntənəsinə çatır Həqiqət!

Kaspi 2020.- 22-24 fevral.- S.13.